


# Müqayisəli Ədəbiyyatşünaslıq

# Comparative Literature Studies

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 1, 27-36, 2026
DOI: https://doi.org/10.59849/2663-4414.2026.1.27

Araşdırma Məqaləsi / Research Article


## Cəmşid Əmirovun "Vətəndən Uzaqlarda" Romanı Və Kemel Tokayevin "Xüsusi Tapşırıq" Povestində Müharibə Mövzusu

*The Theme of war in the Novel "Far From The Homeland" by Jamshid Amirov And in the Story "Special Assignment" by Kemel Tokayev*


**Seyidnisə Lətifli**
**E-mail:**
seyidnise.letifli@mail.ru
**Tel**:+ 994 506530838
**ORCİD**:
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**



Məqalənin gəldiyi tarix/Received: 12.04.2026
Qəbul tarixi/Accepted: 22.06.2026
Nəşr tarixi/ Available Online: 13.07.2026



**Xülasə:** Müharibə cəmiyyətin strukturunu və ictimai münasibətlər sisteminin dərin qatlarını sarsıdan, onun demoqrafik, iqtisadi və mədəni axarını dəyişdirən mürəkkəb və genişmiqyaslı qarşıdurmadır. O, yalnız sərhədləri deyil, insanların taleyini, düşüncə tərzini və gələcəyə baxışını da yenidən formalaşdırır. Ədəbiyyatda müharibənin əksi məsələsi dərin mövzulardan biridir. Yazıçılar müharibə mövzusunda çoxsaylı əsərlər qələmə almışdır. Müharibə cəmiyyətin sosial strukturunda, fərdlərin psixoloji durumunda və mənəvi dəyərlər sistemində dərin izlər buraxmış, bu izlər isə ədəbiyyatda müxtəlif obraz və süjetlərin yaranmasına səbəb olmuşdur. Bədii əsərlər vasitəsilə onlar bu təsirləri poetik və bədii obrazlarla işləyərək həm fərdi, həm də kollektiv təcrübəni oxucuya çatdırmışdır. Cəmşid Əmirov və Kemel Tokayevin cəbhə fəaliyyəti onların bədii yaradıcılığında müharibənin insan psixologiyasına və sosial varlığına təsirini dərindən əks etdirməyə imkan vermişdir. Hər iki yazıçı müharibənin çətinliklərini və insanların daxili mübarizələrini əsərlərində geniş şəkildə təsvir edərək, real təcrübələrini bədii dilə çevirmişdir. Cəmşid Əmirovun "Vətəndən uzaqlarda" romanı və Kemel Tokayevin "Xüsusi tapşırıq" povesti mövzu və ideya cəhətdən bir-birilə səsləşən əsərlərdir. Məqalədə hər iki əsərdə müharibənin sosial və mənəvi-psixoloji aspektlərinin müqayisəli təhlilini aparmaqla yanaşı, müharibə fonunda formalaşan casus detektivinin xüsusiyyətləri, kəşfiyyat və gizli mübarizə motivlərinin bədii mətnin strukturuna və obrazların psixologiyasına təsiri araşdırılmışdır. Məqalənin elmi yeniliyi Cəmşid Əmirovun "Vətəndən uzaqlarda" və Kemel Tokayevin "Xüsusi tapşırıq" əsərlərinin ilk dəfə müqayisəli təhlilə cəlb olunmasıdır. Tədqiqatda hər iki əsər ideya-məzmun xüsusiyyətləri, süjet quruluşu, obrazlar sistemi qarşılaşdırılmışdır. Müqayisəli təhlil metodundan istifadə olunmuşdur.



**Açar sözlər:** *povest, roman, casus, kəşfiyyat, müharibə*



**Abstract:** War is a complex and large-scale confrontation that profoundly disrupts the deep layers of social structure and the system of social relations, altering the demographic, economic, and cultural trajectory of society. It reshapes not only borders but also human destinies, modes of thinking, and perceptions of the future. In literature, war constitutes one of the most profound and enduring themes. Writers have consistently turned to the subject of war because it leaves deep traces in the social structure of society, in the psychological condition of individuals, and in systems of moral values; these traces, in turn, give rise to diverse characters and plotlines in literary works. Through literature, authors artistically and poetically render these impacts, conveying both individual and collective experiences to the reader.The frontline experience of Jamshid Amirov and Kemel Tokayev enabled them to reflect profoundly in their creative works the impact of war on human psychology and social structure. Both writers extensively depict the hardships of war and the internal struggles of individuals, transforming their real-life experiences into artistic expression. "Far From The Homeland" by Jamshid Amirov and "Special Assignment" by Kemel Tokayev are works that resonate with each other in terms of theme and ideology.The article conducts a comparative analysis of the social and moral-psychological aspects of war in both works. In addition, it examines the characteristics of the spy-detective genre shaped within the wartime context, as well as the influence of intelligence and covert struggle motifs on the structure of the literary text and on the psychological portrayal of the characters. The scientific novelty of the article lies in the fact that Jamshid Amirov's "Far From The Homeland" and Kemel Tokayev's "Special Assignment" are, for the first time, subjected to a comparative analysis. The study compares both works in terms of thematic and ideological features, plot construction, and character systems. The research is based on the comparative analysis method.



**Keywords:** *story, novel,spy,intelligence,war*

**Cite as(APA 7):** Lətifli, S. (2026). Cəmşid Əmirovun "Vətəndən Uzaqlarda" Romanı Və Kemel Tokayevin "Xüsusi Tapşırıq" Povestində Müharibə Mövzusu. *Müqayisəli ədəbiyyatşünaslıq*, *2*, 27-36. https://doi.org/10.59849/2663-4414.2026.1.27

**Giriş / Introduction**

Cəmşid Əmirovun "Vətəndən uzaqlarda" romanı və Kemel Tokayevin "Xüsusi tapşırıq" povesti XX əsr sovet dövrü Azərbaycan və qazax ədəbiyyatında müharibə mövzusunun bədii-estetik təcəssümünü əks etdirən mühüm nəsr nümunələrindəndir. Hər iki əsər fərqli milli ədəbi mühitlərdə qələmə alınsa da, onları birləşdirən əsas xətt Böyük Vətən müharibəsinin insan talelərinə və ictimai şüura təsirinin bədii təhlilidir. İkinci Dünya müharibəsi əhatə etdiyi coğrafiyasına və itkilərinə görə digərlərindən əsaslı şəkildə fərqlənmişdir. "*XX əsrdə elm və texnologiyanın inkişafı yeni müharibə erasının başlanmasına səbəb oldu. Müxtəlif tip silahların, xüsusilə də, nüvə silahının icadı cəmiyyət və təbiət üçün yeni təhlükə yaratmış, nəticədə bir əsr ərzində milyonlarla insanın məhvinə gətirib çıxardan ikinci dünya müharibəsi baş vermişdir. Bu baxımdan İkinci Dünya Müharibəsini əhatə etdiyi coğrafiya və itkilərinin sayına görə insanlıq tarixinin ən dəhşətli müharibəsi kimi dəyərləndirmək mümkündür"* (Həsənli, 2020, s. 42).

Cəmşid Əmirov və Kemel Tokayev yaradıcılığında müharibə yalnız tarixi hadisə kimi deyil, həm də insan xarakterinin formalaşdığı, mənəvi dəyərlərin sınağa çəkildiyi mürəkkəb ictimai-mənəvi fenomen kimi təqdim olunmuşdur. Yazıçılar  Ukrayna torpaqlarında faşist işğalına qarşı aparılan müqavimət və qəhrəmanlıq təcrübələrini ədəbi və ideoloji kontekstdə əks etdirmişdir. *"Onların yaratdığı ədəbi nümunələr dövrün ictimai və ideoloji gerçəklikləkini bədii boyalarla əks etdirən əsərlərdir"* (Hümmətova, 2025, s. 168).

Hər iki ədibin yaradıcılığında müharibə mövzusu mühüm yer tutur. Sovet vətənpərvərliyi, sosial humanizm, xalqlar dostluğu, proletar beynəlmiləlçiliyi kimi yüksək duyğular, işıqlı fikirlər və bu keyfiyyətlər uğrunda mübarizədə təzahür edən rəşadət, iradə, əzm, cəsarət yazıçıların əsərlərinin qəhrəmanları üçün ən mühüm səciyyəvi xüsusiyyətlərdir. "*Yazıçılar əsərlərində təsvir etmiş olduğu hadisəni həm mənfi, həm də müsbət prizmadan təhlil edərək cəmiyyətdə mövcud olan ziddiyyətlərin həllində fərdin rolunu ön plana çıxarırlar"* (Lətifli S. , 2023, s. 105). Müəlliflərin əsərlərində qəhrəmanlıq motivi xüsusilə diqqətəlayiqdir. Onlar Ukrayna torpaqlarında faşist işğalına qarşı mübarizə və partizan hərəkatı fonunda insanın cəsarətini, mənəvi dözümlülüyünü və bütövlüyünü nümayiş etdirirlər. Əsərlərdə əks olunan hadisələr yalnız hərbi və strateji baxımdan deyil, həm də psixoloji və etik aspektlərdən dəyərləndirilir, beləliklə, oxucuya müharibənin insan ruhuna və ictimai münasibətlərə təsiri hiss etdirilir.

Cəmşid Əmirov və Kemel Tokayevin detektiv yaradıcılığı müharibə mövzusunun təqdimatına xüsusi təsir göstərir. Detektiv elementlər əsərlərdə gərginliyi artırır, qəhrəmanların situasiyalara reaksiyasını və mənəvi seçimlərini daha dramatik və çoxşaxəli göstərməyə imkan verir, eyni zamanda oxucunu hadisələrin inkişafına daha aktiv cəlb edir.

*“Müharibə sosial-ictimai hadisə olmaqla yanaşı, eyni zamanda mənəvi-psixoloji tərəfləri olan məfhumdur. Bu mövzuda qələmə alınan əsərlərin əksəriyyətində cəbhə həyatında adamların sarsılmaz iradəsi, xalqlar dostluğunun təntənəsi, döyüşlərdə göstərilən şücaət və fədakarlıqlar, arxa cəbhədə isə ön cəbhəni düşünən təmiz mənəviyyatlı, müharibə ilə nəfəs alan insanların əmək həyatı təsvir edilirdi”* (Nəbiyev, 2009, s. 78). Hər iki yazıçının cəbhə fəaliyyəti onların yaradıcılığına əhəmiyyətli təsir göstərmiş və müharibə şəraitində birbaşa iştirak etmələri əsərlərdə hadisələrin daha real, dramatik və təsirli şəkildə təqdim olunmasına imkan yaratmışdır. Yazıçılar bu faciələrin doğurduğu mənəvi və psixoloji vəziyyəti, həmçinin bu şəraitdə qəhrəmanların davranış və reaksiyalarını dərin bədii-estetik vasitələrlə təsvir etmişlər. Bu isə onların əsərlərinə yüksək bədii və psixoloji dərinlik qazandırmışdır. “Vətəndən Uzaqlarda” və “Xüsusi tapşırıq” əsərləri hadisələrin artıq baş vermiş bir kontekstdə, keçmişin nəqlinə əsaslanaraq təqdim olunması ilə diqqət çəkir, yazıçılar oxucuya hadisələri bir obrazın prizmasından çatdırır, beləliklə, həm fərdi təcrübə, həm də kollektiv yaddaş ədəbi-estetik vasitələrlə canlandırılır. Bu yanaşma əsərlərdə həm tarixi realizmi, həm də psixoloji dərinliyi vurğulayır, hadisələrin dramatik təsirini artırır və oxucunu qəhrəmanın subyektiv baxış bucağı vasitəsilə hadisələrin daxilinə çəkir.

Bu iki bədii nümunədə hadisələrin baş verdiyi məkan almanlar tərəfindən yaradılmış yəhudi əsir düşərgəsi kimi təqdim olunur. Lakin bu eyni məkanın bədii işlənmə səviyyəsi və estetik təqdimat prinsipləri fərqli istiqamətlərdə inkişaf etdirilmişdir. “Xüsusi tapşırıq” povestində sözügedən epizod daha yığcam və lakonik şəkildə təsvir olunur. Müəllif hadisələrin təqdimində faktoloji dəqiqliyə, süjetin dinamikasına və struktur bütövlüyünə üstünlük verir. Koloniya məkanı burada daha çox süjet xəttinin inkişafına xidmət edən funksional bir element kimi çıxış edir. Təsvirlər konkretdir, emosional-ekspressiv vasitələr minimum səviyyədə istifadə olunur. Bu yanaşma nəticəsində hadisələr daha çox tarixi-realist kontekstdə qavranılır, müəllif diqqəti fərdi talelərin psixoloji təhlilindən çox ümumi situasiyanın obyektiv mənzərəsinə yönəldir. Beləliklə, yazıçının təqdimatında koloniya məkanı dramatik simvola çevrilmir, daha çox müharibə reallığının sərtliyini əks etdirən bir fon funksiyası daşıyır. Bu bir daha isbat edir ki, *“müharibə nəsri müharibə yaşamış bir çox xalqların ədəbi irsinin mühüm bir hissəsidir. Müharibə yalnız döyüş meydanı ilə məhdudlaşmırdı”* (Гасанов, 2016, s. 66).

“Vətəndən uzaqlarda” romanında isə eyni məkan geniş və çoxplanlı bədii təsvir predmeti kimi təqdim edilir. Müəllif koloniyada baş verən hadisələri yalnız tarixi fakt kimi deyil, insan talelərinin faciəsi kontekstində araşdırır. Obrazların daxili aləmi, psixoloji sarsıntıları, qorxu, ümidsizlik və mənəvi deqradasiya halları geniş şəkildə açılır. Emosional-psixoloji təsvirlər gücləndirilir, dramatik gərginlik artırılır və hadisələrin insan həyatına təsiri dərinləşdirilir. Bu baxımdan, koloniya məkanı sadəcə fiziki mühit deyil, həm də mənəvi-etik sınaq meydanına çevrilir.

Hər iki müəllif eyni tarixi gerçəklikdən çıxış etsə də, bədii-estetik prinsipləri fərqlidir: povestdə yığcamlıq, obyektivlik və struktur funksionallıq üstünlük təşkil etdiyi halda, romanda isə dramatizm, psixoloji təhlil və insan talelərinin faciəvi aspektinin geniş təqdimatı əsas yer tutur. Bu fərq onların yaradıcılıq metodunun və ədəbi-estetik dünyagörüşünün müxtəlifliyi ilə şərtlənir.

Hər iki əsərdə almanların əsirlərə qarşı tətbiq etdikləri xüsusi və qəddar ölüm üsullarından bəhs olunur. Müəlliflər bu səhnələr vasitəsilə müharibənin dəhşətlərini, insanlıqdan uzaq davranışları və almanların qəddarlığını oxucuya daha təsirli şəkildə çatdırırlar. "Xüsusi tapşırıq" povestində bu cinayət "ölüm evi" adlandırılan yerdə həyata keçirilirsə, "Vətəndən uzaqlarda" romanında isə əsirləri "ölüm maşını" adlandırılan xüsusi avtomobildə zəhərli qazla boğaraq qətlə yetirirdilər: *"Bura ölüm evi idi, axşamlar məhbus dəstəsini ora sürüyərək güllələyirdilər"* (Tokayev, 2024, s. 84), *"Bu avtomobil Duşequbka, yəni adam boğub öldürən maşın adlanır"* (Əmirov C. , Vətəndən uzaqlarda, 2009, s. 156). Kemel Tokayevin əsərində müvafiq epizod daha yığcam və lakonik formada verilir. Müəllif hadisələri informativ şəkildə təqdim edir və təsvirlərdə faktoloji istiqamət üstünlük təşkil edir. Lakin süjet xəttinin quruluşunda müəyyən epizodik pərakəndəlik və məlumatların verilməsində nisbi qarışıqlıq hiss olunur. Hadisələr arasında keçidlər bəzən kifayət qədər aydın sistemləşdirilmədiyindən oxucu əvvəlki məqamları dəqiqləşdirmək üçün mətndə geri dönüş etməyə ehtiyac duyur. Bu xüsusiyyət əsərin kompozisiya strukturunda xronoloji və məntiqi ardıcıllığın müəyyən dərəcədə zəifləməsi ilə nəticələnir. Bunu həm də müharibənin dəhşətinin miqyasını təsvir baxımından çətinliyi ilə də əlaqələndirmək olar. Ümumiyyətlə, *"müharibə sovet insanı üçün böyük bir müəmma idi. Nəticədə milyonlarla insan həlak olsa da, onların yolunu gözləyənlərin gözü yolda qalsa da, bu ağır fəlakətdən qaçmaq da mümkün deyildi* (Həsənli, 2020, s. 44).

Cəmşid Əmirovun əsərində isə hadisələr zənciri daha sistemli və ardıcıl şəkildə qurulmuşdur. Süjet xətti səbəb-nəticə əlaqələri əsasında inkişaf edir, epizodlar bir-birini məntiqi şəkildə tamamlayır və kompozisiya bütövlüyü qorunur. Müəllif hadisələrin mərhələli inkişafını təmin etməklə yanaşı, obrazların psixoloji transformasiyasını da paralel şəkildə izləyir. Bu sistemlilik oxucunun mətn daxilində istiqamətini itirməməsinə, hadisələrin inkişaf trayektoriyasını aydın şəkildə qavramasına şərait yaradır.

"Xüsusi tapşırıq" əsərində gizli təşkilatın formalaşmasında əsas qüvvə əsgərlərdir. Onlar düşmənə qarşı mübarizə aparmaq, əsirlərə kömək etmək və müqaviməti təşkil etmək məqsədilə birləşirlər. Təşkilatın formalaşması daha çox hərbi mühitlə, intizam və döyüş təcrübəsi ilə bağlıdır. "Vətəndən uzaqlarda" romanında isə təşkilatın yaranması fərqli şəkildə təqdim olunur. Burada təşəbbüs neft mədənlərində çalışan sadə zəhmətkeş insanlar tərəfindən irəli sürülür. Xalqın öz içindən çıxan bu birlik həmrəyliyə, vətənpərvərlik hissinə və azadlıq ideyasına söykənir. Beləliklə, hər iki

əsərdə təşkilatın məqsədi eyni — düşmənə qarşı mübarizə aparmaq olsa da, yaranma mənbəyi fərqlidir: birində əsas qüvvə əsgərlərdirsə, digərində sadə əmək adamlarıdır.

Müharibə konteksti yalnız tarixi-siyasi fon funksiyası daşımır, eyni zamanda süjetin struktur-semantik təşkilində aparıcı rol oynayaraq casus detektivinin əsas əlamətlərinin formalaşmasına zəmin yaradır. "*Detektiv əsərin əsas üstünlüyü tərkibində mürəkkəb və maraqlı tapmacanın olmasıdır, tapmacanın aşılması əsərin inkişafının əsas hərəkətverici qüvvəsidir"* (Lətifli S. , 2025, s. 56). Müharibə şəraiti hadisələrin inkişaf trayektoriyasını müəyyənləşdirir, konfliktin miqyasını genişləndirir və gərginlik amilini intensivləşdirir. Bu isə janrın fundamental xüsusiyyətləri olan sirr, təhlükə və qeyri-müəyyənlik mühitinin yaranmasına səbəb olur.

Əsərlərdə casus fəaliyyətinin təşkili və məxfi məlumatların əldə olunması süjet xəttinin əsas istiqamətini təşkil edir. Qəhrəmanların ikili identiklik daşıması, sosial maskalanma və konspirativ davranış formaları detektiv təhqiqat mexanizmi ilə paralel şəkildə təqdim edilir. Beləliklə, oxucu hadisələrin səbəb-nəticə əlaqələrini məntiqi təhlil yolu ilə müəyyənləşdirməyə cəlb olunur. *"At the beginning of the 20th century, the spy detective was formed under the influence of the competition and intrigues of the main world powers, accompanied by the emergence of large-scale modern intelligence* services"/ "*XX əsrin əvvəllərində casus detektivi dünya dövlətləri arasında rəqabət və intriqaların, eləcə də genişmiqyaslı müasir kəşfiyyat xidmətlərinin yaranmasının təsiri altında formalaşmışdır"* (Lətifli, 2024, s. 115). Casus detektivində yazılmış əsərlərdə qətl və qətlləri kimin törətməyinin əhəmiyyəti yoxdur, çünki əsas məqsəd bu intriqaların səbəbkarlarını aşkara çıxarmaqdır. *"Casus yüksək peşəkar qabiliyyətə malik olmalıdır: dəqiq yaddaşa, siyasi terminologiya biliyinə, parolların və siqnalların ötürülməsi bacarığına"* (Lətifli, 2024, s. 115). Bu mövzuda qələmə alınmış əsərlərə məxsus səciyyəvi xüsusiyyətlərdən biri də mətn daxilində casus parollarının və şifrəli kommunikasiya vasitələrinin istifadəsidir. Bu element janrın struktur xüsusiyyətləri ilə bilavasitə bağlı olub, həm süjetin qurulmasında, həm də gərginlik atmosferinin formalaşdırılmasında mühüm funksional rol oynayır. Parollar məxfilik prinsipinin bədii ifadə forması kimi çıxış edir. Casus fəaliyyətinin əsas şərti informasiyanın qorunması və yalnız müəyyən dairələr arasında ötürülməsidir. Bu baxımdan parol və şifrələr gizli əlaqə mexanizmini təmin edən vasitə kimi təqdim olunur. Onların istifadəsi süjetdə konspirativ mühit yaradır və hadisələrin təhlükəli xarakterini vurğulayır. *"For the reader, such encoded messages generate additional intellectual interest, as uncovering the layers of meaning hidden beneath the surface of the text activates analytical and detective-like modes of thinking" / "Oxucu üçün isə bu cür kodlaşdırılmış mesajlar əlavə intellektual maraq doğurur, çünki mətnin alt qatında gizlənmiş məna qatlarının açılması detektiv təfəkkürü aktivləşdirir"* (Horsley, 2010, s. 65). Yanlış parolun işlədilməsi, şifrənin açılması və ya düşmən tərəfindən ələ keçirilməsi kimi situasiyalar konfliktin kəskinləşməsinə səbəb olur. Bu isə hadisələrin

inkişafında dönüş nöqtələri yaradır və gərginliyi artırır. Beləliklə, parol yalnız texniki detal deyil, eyni zamanda süjetin hərəkətverici elementinə çevrilir.

Bununla yanaşı, casus parolları simvolik məna daşıya bilər. Bəzən şifrə konkret söz və ya ifadə olmaqla yanaşı, müəyyən ideoloji və ya psixoloji məzmunu da ehtiva edir. Bu zaman parol obrazların dünyagörüşü, mənsubiyyəti və ya daxili mövqeyi haqqında informasiya verir. Nəticədə, kodlaşdırılmış ünsiyyət forması mətnin semantik dərinliyini artırır. Məsələn, "Xüsusi tapşırıq" povestində biz bunun şahidi oluruq: *"Dükan yiyəsi mənimlə razılaşdırılmış parola uyğun olaraq söhbət etdi. Siz iplik sexinin arxasında üçüncü evə gedin. Mən yanınıza sonra gələcəyəm", "Görüş öncədən təyin olunmuşdu. O, mənə deməli idi ki, baş ağrı dərmanı lazımdır və mən içəri keçməli idim"* (Tokayev, 2024, p. 102), "Vətəndən uzaqlarda" romanında isə gizli əlaqə vasitələri daha sistemli və planlı şəkildə təqdim olunur. Bu isə casusların fəaliyyətinin daha təşkilatlanmış olduğunu göstərir: *"Kim sənin yanına gəlib desə ki, çəkməyə iki siqaret ver, cavabında deyərsən, Bir siqaret bəs etməz? Əgər qayıdıb desə, yarısı da kifayətdir, bil ki, o mənim adamımdır"* (Əmirov C. , 2009, s. 134).

Casus detektivi əsərlərində kimlik və ya şəxsiyyət dəyişdirmək tez-tez istifadə olunan süjet üsullarından biridir. Obrazlar  gizli məlumat toplamaq və düşmən mühitinə daxil olmaq üçün başqa ad və kimlikdən istifadə edirlər. Bəzi hallarda cinayətkarlar özlərini gizlətmək və tutulmamaq üçün şəxsiyyətlərini dəyişirlər. Detektivlər isə araşdırma aparmaq və şübhəliləri izləmək üçün bəzən başqa insan kimi davranırlar. Kimlik dəyişdirmə əsərdə sirr, gərginlik və gözlənilməz hadisələrin yaranmasına səbəb olur. Müharibə mövzusunda olan casus detektivi əsərlərində hadisələr adətən müharibə şəraitində və düşmən ölkələr arasında baş verir. Bu əsərlərdə casuslar düşmən tərəfin planlarını öyrənmək və gizli məlumat toplamaq üçün fəaliyyət göstərirlər. Qəhrəmanlar çox vaxt gizli kimlikdən istifadə edərək düşmən mühitinə daxil olurlar. *"It is precisely through this mechanism that a spy appropriates documents not originally belonging to them, thereby enabling the seamless alteration of identity and the effective obscuring of their trace" / "Məhz bunun vasitəsilə casus özünə aid olmayan sənədləri özününküləşdirərək şəxsiyyətini asanlıqla dəyişib izini itirir"* (Todorov, 1966, s. 291). Onların əsas məqsədi düşmənin planlarını üzə çıxarmaq və öz ölkələrini təhlükədən qorumaq olur. Bu tip əsərlərdə gizli əməliyyatlar, izləmə, şifrəli məlumatlar və təhlükəli tapşırıqlar geniş yer tutur. "Xüsusi tapşırıq" əsərində İrina cild dəyişdirərək əsirlərə kömək etmişdi: *"Kimsə alman forması geyinib faşistləri aldadıb", "Casuslar hələ də kəndləri dolaşırdı. Onlar dilənçi görkəminə girərək şübhəli şey barəsində jandarma məlumat verirdilər"* (Tokayev, 2024, s. 22), "Vətəndən uzaqlarda" romanında Milaida kimliyini dəyişdirib Gizela Landşaft adı ilə yaşayaraq öz vətəni naminə casusluq fəaliyyəti göstərirdi. İrina obrazından fərqli olaraq, bu obrazın fəaliyyəti əsərdə daha geniş şəkildə

təqdim edilmiş, xüsusilə onun vətəni naminə həyata keçirdiyi casusluq fəaliyyəti daha ətraflı təsvir olunmuşdur.

Müharibə ədəbiyyatda yalnız tarixi və hərbi hadisələr kimi deyil, həm də insan həyatının, mənəviyyatının və cəmiyyətin formalaşmasına təsir edən güclü bir amil kimi əks olunur. Çünki tarixən, *"müxtəlif formada qruplaşan insanlar arasında müharibələr min illər boyu davam edib və sayı bilinməyən insanların məhvi ilə nəticələnib. Yaranan imperiyaların varlığını sürdürməyin yegana yolu da məhz uğurlu müharibələr, ərazi fəthləri olmuşdur. İşğallar qədim və orta əsr dövlətlərinin əsas varlıq fəlsəfəsinə çevrilmişdir"* (Həsənli, 2020, s. 42).

Cəmşid Əmirovun "Vətəndən Uzaqlarda" romanı və Kemel Tokayevin "Xüsusi Tapşırıq" povesti müharibənin sosial və mənəvi-psixoloji aspektlərini oxucuya fərqli, lakin bir-birini tamamlayan prizmalardan təqdim edir. Hər iki əsər müharibənin insan həyatında yaratdığı sınaqları və qarşılaşdığı ziddiyyətləri işıqlandırır. Müqayisəli təhlil göstərir ki, Əmirov geniş sosial və daxili mənəvi perspektiv təqdim edir, Tokayev isə konkret əməliyyat və tapşırıqlar üzərindən fərdi psixoloji və sosial davranışları göstərir. Hər iki əsər müharibənin insan həyatında yaratdığı ziddiyyətləri və sınaqları oxucuya çatdırmaq baxımından bir-birini tamamlayır. Cəmşid Əmirovun romanında müharibə sadə xalqın təşəbbüsü və təşkilatlanması fonunda göstərilir. İnsanlar yalnız döyüş meydanında deyil, həm də sosial təşkilatlarını quraraq vətəni müdafiə etmək üçün birləşirlər. Müharibə həm ictimai, həm də şəxsi səviyyədə birgə fəaliyyət və həmrəylik vasitəsilə davam edir. Kemel Tokayevin povesti isə daha çox hərbi xidmət və rəsmi əməliyyat çərçivəsində gedir. Burada sadə xalq mövcuddur, amma əsas diqqət hərbi qruplar, xüsusi tapşırıqlar və fərdi əsgər qəhrəmanlığı üzərindədir. "Vətəndən uzaqlarda" romanında diqqət daha çox müharibənin insan həyatına və taleyinə təsirinə yönəlir. Burada müharibə şəraiti insanın daxili dünyasını, onun hiss və düşüncələrini formalaşdıran bir amil kimi təqdim olunur. "Xüsusi tapşırıq" povestində isə hadisələr daha çox xüsusi tapşırıqlar, gizli fəaliyyət və təhlükəli vəziyyətlər ətrafında qurulur. Müəllif müharibənin strateji tərəflərini və gərgin hadisələri ön plana çəkir.

Digər fərq əsərlərin janr xüsusiyyətləri ilə bağlıdır. Roman daha geniş hadisələr dairəsini əhatə edir və müharibənin müxtəlif tərəflərini göstərir, povest isə hadisələri daha yığcam və konkret süjet xətti üzərində təqdim edir.

Bədii əsərdə yaradılmış hər bir obraz və onun səciyyəvi xüsusiyyətləri yalnız süjetin inkişafında deyil, həm də əsərin psixoloji dərinliyinin formalaşmasında mühüm rol oynayır, qəhrəmanın daxili dünyası, emosional reaksiyaları və mənəvi-psixoloji sınaqlarla üzləşməsi əsərin əsas ideyasının, o cümlədən insan xarakterinin formalaşması və davranış motivlərinin oxucuya dərin və inandırıcı şəkildə çatdırılmasını təmin edir. "Vətəndən uzaqlarda" romanı və "Xüsusi tapşırıq"

povesti müharibə mövzusunu əks etdirən əsərlər olmaqla yanaşı, zəngin obrazlar sistemi ilə də diqqəti cəlb edir. Hər iki əsərdə müəlliflər hadisələrin ideya məzmununu və müharibə dövrünün ictimai-siyasi mühitini obrazlar vasitəsilə açmağa çalışırlar. Obrazlar sistemi əsərlərin süjet xəttinin inkişafında mühüm rol oynayır və müharibə dövründə insanların mənəvi keyfiyyətlərini, vətənpərvərlik hisslərini və mübarizə əzmini nümayiş etdirir. "Xüsusi tapşırıq" povestində Aleksey Vasileviç, Qriqori Protsenko, Qrişa Spijevoy, Valya və Zoya obrazları, "Vətəndən uzaqlarda" romanında isə Yusif, Süleyman və Yaqub kimi şəxslər ideya-məzmun baxımından vətənin müdafiəsi konsepsiyasını təcəssüm etdirən əsas qəhrəmanlar kimi səciyyələndirilir. Sözügedən obrazlar fərdi xarakter xüsusiyyətləri ilə seçilsələr də, onları birləşdirən başlıca cəhət yüksək vətənpərvərlik hissi, fədakarlıq və ictimai-mənəvi məsuliyyətin daşıyıcıları olmalarıdır. Hər iki əsərdə bu qəhrəmanların fəaliyyət istiqaməti və davranış modeli milli maraqların qorunmasına xidmət edir və onların obrazları vasitəsilə müəllif vətənin keşiyində duran insan tipini ümumiləşdirilmiş şəkildə təqdim edir. Beləliklə, qeyd olunan personajlar bədii mətnin ideya yükünü daşıyan, vətənə sədaqət və borc anlayışlarını təbliğ edən tipik qəhrəmanlar kimi qiymətləndirilə bilər.

Bədii ədəbiyyatın humanist funksiyası onun özünəməxsus psixologizmi ilə müəyyən edilir. Ədəbiyyat və psixologiya elmi arasında ortaq məqamlardan ən başlıcası insandır. *"Psixologizm anlayışı adətən insanın öz daxili dünyasının, yəni düşüncələrinin, təcrübələrinin, istəklərinin dərin təsvirini ehtiva edir"* (İmanov, 1991, s. 78). Müəlliflər obrazların psixoanalizinə yer verməklə onların motivasiya, qorxu və istəklərinin daha canlı təsvirinə nail olmuşdur. Müharibə şəraitində insan psixologiyası ciddi dəyişikliklərə məruz qalır. Qorxu, təşviş, ümidsizlik, itki hissi və travma qəhrəmanların davranışına və qərarlarına təsir edir. İnsanlar bəzən yaşamaq uğrunda mübarizədə öz mənəvi dəyərləri ilə ziddiyyətə düşür, daxili konfliktlər yaşayırlar. Bu da ədəbiyyatda psixologizmin güclənməsinə səbəb olur. Psixologizm vasitəsilə müəlliflər müharibənin görünməyən tərəfini – insan ruhunda baş verən "müharibəni" göstərirlər. Qəhrəmanların daxili monoloqları, xatirələri, vicdan əzabı, itki ilə barışa bilməmələri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə təsvirlər oxucunun hadisələri daha dərindən hiss etməsinə və qəhrəmanla empatiya qurmasına imkan yaradır. "Xüsusi tapşırıq" povestində Dimitrinin həyat yoldaşı Mariyanın faşistlər tərəfindən onun gözləri önündə öldürülməsi səhnəsi müharibənin ən ağır və sarsıdıcı psixoloji təsirlərini açıq şəkildə göstərir. Bu epizod təkcə fiziki zorakılıq deyil, həm də insan ruhunun parçalanması, ümidsizlik və daxili sarsıntıların kulminasiya nöqtəsidir: *"O, qar üzərində qan izlərini gördü. Dimitri qızını götürdü, acı-acı ağladı"* (Tokayev, 2024, s. 132). Mariyanın ölüm səhnəsi Dimitri üçün dönüş nöqtəsinə çevrilir. O, sevdiyi insanı qorumaqda aciz qalır və bu acizlik hissi onun daxilində dərin travma yaradır. Müharibə burada sadəcə cəbhədə gedən döyüş deyil, insanın şəxsi həyatına, ailəsinə, sevgisinə yönəlmiş qəddar bir güc kimi təqdim olunur. Dimitrinin gözləri qarşısında baş verən bu faciə onun psixoloji dünyasında böyük təlatüm yaradır. Bu səhnə həm də müharibənin insanı necə dəyişdirdiyini

göstərir. Əvvəllər daha sakit və ümidli olan Dimitri, bu hadisədən sonra daha sərt, məqsədyönlü və emosional cəhətdən sarsılmış bir insana çevrilir. Onun üçün artıq mübarizə yalnız vətən uğrunda deyil, həm də şəxsi itkisinin qisasını almaq uğrundadır. "Vətəndən uzaqlarda" əsərində müharibənin insan həyatındakı ağrılı izi bu səhnə ilə hiss olunur: *"Axşama yaxın alman faşistləri düşərgəni əhatəyə aldılar. Burada yaşayan bütün yəhudiləri qabaqcadan qazılmış T hərif şəkilli xəndəklərə gətirdilər. Dəstə-dəstə güllələdilər. İki sevgili, Yusiflə Meri Liberzon əl-ələ verib son dəfə qucaqlaşıb öpüşdülər. Yaylım atəşi açıldı. Başqa yəhudilər kimi iki sevgili də xəndəyə yuvarlandı"* (Əmirov C. , Vətəndən uzaqlarda, 2009, s. 293).

Müəlliflərin əsərlərinin ən mühüm dəyəri həyatın aktual problemlərini əsas hekayə xətti ilə əlaqələndirməsi, bununla da insanı tanıması, onun cəmiyyətlə münasibətini məharətlə təsvir etməsidir.

## Nəticə

Aparılmış müqayisəli-analitik təhlil nəticəsində müəyyən olunur ki, Cəmşid Əmirovun "Vətəndən uzaqlarda" romanı ilə Kemel Tokayevin "Xüsusi tapşırıq" povesti müharibə fenomenini müxtəlif bədii yanaşmalar çərçivəsində interpretasiya etsə də, onların ideya-semantik istiqaməti vahid konseptual xətt üzrə inkişaf edir. Hər iki mətndə müharibə yalnız tarixi-siyasi hadisə kimi deyil, eyni zamanda insanın mənəvi-psixoloji transformasiyasını şərtləndirən ekstremal situasiya kimi təqdim olunur. Mətnlərin komparativ təhlili göstərir ki, kəşfiyyat və gizli mübarizə motivləri yalnız süjetin struktur komponenti funksiyasını daşımır, həm də obrazların etik-seçim mexanizmini, identiklik problemini və dəyərlər sisteminin dinamikasını üzə çıxaran əsas semantik determinant kimi çıxış edir. Casus və kəşfiyyatçı tipajları vasitəsilə fərdi və kollektiv məsuliyyət, sədaqət və xəyanət, qorxu və qəhrəmanlıq kimi binar oppozisiyalar çoxqatlı bədii müstəvidə reallaşdırılır.

Eyni zamanda, hər iki əsərdə müharibənin sosial-mənəvi nəticələri fərdi talelərin ümumiləşdirilməsi yolu ilə təqdim olunur, bu isə insanın ekzistensial təcrübəsinin, travmatik yaddaşın və mənəvi dayanıqlığın bədii inikasını şərtləndirir. Belə yanaşma müharibənin yalnız destruktiv mahiyyətini deyil, həm də insanın daxili potensialının səfərbər olunması və dəyərlər sisteminin yenidən qurulması prosesini ön plana çıxarır.

Nəticə etibarilə, qeyd olunan əsərlər müharibə mövzusunun çoxplanlı bədii interpretasiyasını təmin edərək, onu insanın mənəvi identifikasiyasının, etik seçimlərinin və psixoloji davamlılığının sınaq məkanı kimi təqdim edir. Bu baxımdan, onların müqayisəli tədqiqi müharibə ədəbiyyatının semantik imkanlarını daha dərindən anlamağa və ümumiləşdirməyə şərait yaradır. Aparılan müqayisəli təhlil türk xalqları ədəbiyyatları arasında tipoloji oxşarlıqların və ədəbi əlaqələrin müəyyənləşdirilməsi baxımından elmi əhəmiyyət daşıyır.

**Ədəbiyyat / Reference**


Əmirov, C. (2009). *Vətəndən uzaqlarda*. Bakı: Azərnəşr.

Həsənli, M. A. (2020). *Çingiz Aytmatov fenomeni və Azərbaycan*. Bakı: Elm və təhsil.

Horsley, C. J. (2010). *A Companion to Crime Fiction.*

Hümmətova, X. (2025). DETEKTİV JANRI VƏ KEMEL TOKAYEVİN "SİRLİ İZ" POVESTİNDƏ. *TÜRK DÜNYASI: ORTAQ TARİXİ – MƏDƏNİ DƏYƏRLƏR, MÜASİR REALLIQLAR VƏ GƏLƏCƏYƏ BAXIŞ* (s. 167). Bakı: "Füyuzat.

İmanov, M. (1991). *Müasir Azərbaycan nəsrində psixologizm*. Bakı: Elm.

Lətifli. (2024). Jamshid Amirov's novel" My true love" as a literary example of a spy detective. *Modern Scientific Method* (s. 115). Vienna, Austria: Publisher.agency.

Lətifli, S. (2023). Cəmşid Əmirovun "Brilyant məsələsi" və Kemel Tokayevin "Damğalı qızıl" Povestlərində polis detektivinin xüsusiyyətləri. *Müqayisəli ədəbiyyatşünaslıq*, 1.

Lətifli, S. (2025). KEMEL TOKAYEV: DETEKTİVİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ. *Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar* (s. 56). Bakı: Elm və təhsil.

Nəbiyev, B. (2009). *Seçilmiş əsərləri*. Bakı: Çinar-çap.

Seyidnisə, L. (2025). Cəmşid Əmirovun "Sahil Əməliyyatı" və Kemel Tokayevin "Sirli İz" Povestlərinin Bədii Xüsusiyyətləri. *Müqayisəli ədəbiyyatşünaslıq*, 1.

Seyidnisə, L., & Lətifli, S. (2025). Cəmşid Əmirovun "Sahil Əməliyyatı" və Kemel Tokayevin "Sirli İz" Povestlərinin Bədii Xüsusiyyətləri. *Müqayisəli ədəbiyyatşünaslıq*, 1.

Todorov, T. (1966). The typology of detective fiction. *Crime and Media*, 291-301.

Tokayev, K. (2024). *Xüsusi tapşırıq*. Bakı: Azərnəşr.

Гасанов, М. (2016). Киргизское и азербайджанское село в период Второй мировой войны: от реальности к художественному вымыслу. *Науковий вісник Міжнародного гуманітарного університету. Серія: Філологія*, 66-69.